Məmməd Qədir

# Haqqınızı halal edin

Bakı - 2021

## Əziz oxucu!

44 günlük 2-ci Vətən müharibəsi Azərbaycanın tam və qəti qələbəsi ilə başa çatdı. Bu 44 gündə bütün dünya Azərbaycan xalqının birliyinə, döyüşkənliyinə, qəhrəmanlığına, zəfərinə şahid oldu. Hər qarış torpaq şəhid qanı ilə sulanıb müqəddəs oldu. Şəhidlərimiz, qazilərimiz öz şücaətləri ilə ən yeni tarixə Azərbaycanın qəhrəmanlıq salnaməsini yazdılar.

Bir vətəndaş olaraq mən də özümü qəhrəman şəhidlərimizin qarşısında borclu hesab edərək öz təşəbbüsüm və Xaçmaz Regional Mədəniyyət İdarəsinin o zamankı rəisi, hörmətli ağsaqqalımız Nazim Ağayevin xeyir-duası ilə hər bir şəhidimizin ailəsi ilə görüşərək hər birinə ayrıca bir tərənnüm şeiri həsr etmək qərarına gəldim.

Yanvar və fevral aylarında şəhid ailələrinin hər birini ziyarət etdim, şəhidlərin döyüş yolunu, xatirələrini çözələdim, bir yerdə kədərlənib bir yerdə ağladıq, bir yerdə qürur duyduq. Nəticədə 2-ci Vətən müharibəsində Xaçmaz şəhidlərinə həsr olunmuş " Haqqınızı halal edin" adlı bu kitab ərsəyə gəldi.

Və mən onların müqəddəs ruhu qarşısında cüzi bir xidmət göstərmək imkanı qazandığımdan çox qürurluyam.

**Məmməd Qədir**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

## Nur simalı şəhidlərim

Siz haqqa haqq qazandırıb, nahaqqa üsyan etdiniz,
Şirin canı acı gündə Vətənə ehsan etdiniz,
Sizə göydən baxanları yer ilə yeksan etdiniz,
Siz olmasaz nə olardı yurdun halı, şəhidlərim,
Haqqınızı halal edin, nur simalı şəhidlərim!

Siz millətin söykəndiyi dayağısız, tirisiniz,
Özgüvəni, inanc yeri, ocağısız, pirisiniz,
Ucalardan ucasınız, dirilərdən dirisiniz,
Öldünüz ki, el yaşasın, yurd sevdalı şəhidlərim,
Haqqınızl halal edin, nur simalı şəhidlərim!

Hər birinin surətindən Günəş doğub, işıq yanıb,
Yerlərdə yer aydınlanıb, göylərdə Ay işıqlanıb,
Bu qədər nur şəhadətə yüksəlib, göy işıqlanıb,
Ruhumuzun nur şəkili, işıq halı şəhidlərim,
Haqqınızı halal edin, nur simalı şəhidlərəm.

Al çiçəklər qanınızdan su içdikcə allandılar,
Bü dünyanın acıları şirinləşib ballandılar,
Nur üzlülər nura dönüb şəhadətə yollandılar,
Qanınızla qazandınız istiqlalı, şəhidlərim,
Haqqınızı halal edin, nur simalı şəhidlərim!

Məmməd necə vəsf eyləsin, yanan könlü aram olsun,
O müqəddəs ruhunuzu hifz eləyən Quran olsun,
Haqqınızı unudana ana torpaq haram olsun,
Müqəddəslər məqamında uca, ali şəhidlərim,
Haqqınızı halal edin, nur simalı şəhidlərim!

## Arəstə xanım



***Baxışova Arəstə Kərim qızı***
*04.05.1989 – 24.10.2020*
*Qımıl-Qışlaq kəndi.*
*2-ci Vətən müharibəsinin yeganə xanım şəhidi.*
*Qubadlıda şəhid olub.*

Xaçmaz Vətənidi, Qımıl köyüdü,
Yoluna nur saçdı ata öyüdü,
Kasıb ailədə kasıb böyüdü,
Vicdanı dövlətli Arəstə xanım.

Onun da ömrünə Günəş doğdu dan,
Yaşayıb kamını aldı həyatdan,
Sevgi nübarıydı Zəhrayla Mərdan,
Barlı-bərəkətli Arəstə xanım.

Cəbhəyə könüllü birinci getdi,
Vuruşdu, can qoydu, ürək əritdi,
Neçə yaralıya həyat bəxş etdi,
Şəfalı, hikmətli Arəstə xanım.

Ucaltdı göylərə haqqın səsini,
Oxudu azadlıq təranəsini,
Qubadlıya verdi son nəfəsini,
Şərəfli, şöhrətli Arəstə xanım.

Duyduq azadlığın şirin dadını,
Qanınla tarixə yazdın adını,
Son hərbin yeganə şəhid qadını,
Mərd, kişi qeyrətli Arəstə xanım...

## Kəşfiyyatçı Fəxrəddin



*MAXE*
***Fərəcov Fəxrəddin Feyzulla oğlu.***
*06.11.1993 – 25.11.2020*
*Xudat şəhəri.*
*Şuşada şəhid olub.*

Tanrı dəyərləndirdi bir eşq hekayətini,
Oğul ərməğanıyla göstərdi qüdrətini,
Xaçmazın şöhrətini, Xudatın hörmətini,
Bir idi, beş eylədi, Kəşfiyyatçı Fəxrəddin.

Zəkalı birisiydi, hər hikmətə varırdı,
Yalanların içindən düzünü axtarırdı,
Bu cəngəllik dünyada özünü axtarırdı,
Vətəni kəşf eylədi, Kəşfiyyatçı Fəxrəddin .

Ən ümidsiz çağında Ümid yanında idi,
Vətəninə məhəbbət, sevgi canında idi,
Qiyamətə qoymadı, qisas qanında idi,
Düşməni leş eylədi, Kəşfiyyatçı Fəxrəddin.

Bu millətin əsəbi çəkilmişdi tarıma,
Namusuma dəyirdi, toxunurdu arıma,
Düşmənin belin qırıb, əsir torpaqlarıma,
Azadlıq bəxş eylədi, Kəşfiyyatçı Fəxrəddin.

Qürur hissinə boğdu, doğmasını, yadını,
Şad etdi doğulmamış ikinci övladını,
Şəhidlik zirvəsinə ucalıb öz adını,
Tarixə nəqş eylədi, Kəşfiyyatçı Fəxrəddin...

## Şəhid balam



*Əsgər **Məlikməmmədov Elvin Elçin oğlu***
*20.05.2002 – 05.10.2020*
*Xudat şəhəri.*
*Tərtərdə şəhid olub.*

Anasının dilindən

Sanki nur doğuldu sən doğulan gün,
Kasıb bir daxmaya düşdü toy, düyün,
Öyün söylədilər, ay ana, öyün,
Göydə mələklərə tay, şəhid balam,
Alagöz Elvinim, ay şəhid balam.

İlahi elə ruh vermişdi sənə,
Sığmırdın özünə, cismə, bədənə,
Elə əlaçıqdın, verdin Vətənə
Öz şirin canını pay, şəhid balam,
Alagöz Elvinim, ay şəhid balam.

Sanki al Günəşdən qopan qor idin,
Danışan işıqdın, gəzən nur idin,
Elə parlaq idin, elə gur idin,
Keçir sənsiz günlər, ay, şəhid balam,
Alagöz Elvinim, ay şəhid balam.

Hər gün dirilirəm, hər gün ölürəm,
Getmə, qurban olum, dayan, gəlirəm,
Göylərdən görürsən, oğul, bilirəm,
Bəs niyə vermirsən hay, şəhid balam,
Alagöz Elvinim, ay şəhid balam.

Sənsizlik ruhumu əzir,  sındırır,
Buz kimi ayrılıq məni yandırır,
Nəğmələr, çalğılar səni andırır,
Axır gözlərimdən çay, şəhid balam,
Alagöz Elvinim, ay şəhid balam.

Nə fayda ağlayam, acı yaş tökəm,
Adamlar içində tənhayam, təkəm,
Nə qədər göylərə salavat çəkəm,
Sənsən səmalarda Ay, şəhid balam,
Alagöz Elvinim, ay şəhid balam.

# Nəhəng ləqəbli Zaur



*MAXE* ***Dadaşov Zaur Zümrüd oğlu***
*05.12.1997 – 13.10.2020*
*Aşağıoba kəndi.*
*Füzulidə şəhid olub.*

Bir sevdadan gül açdı, məhəbbətdən yoğruldu,
Xəzərin sahilində bir obada doğuldu,
Mərifətli, zəkalı, cüssəli bir oğludu,
El obadan güc aldı, "nəhəng" ləqəbli Zaur!

Həyat meyarı oldu ata-ana öyüdü,
Arzuları yamyaşıl, diləkləri göyüdü,
Vətənə məhəbbətlə, mərhəmətlə böyüdü,
Meylini hərbə saldı, "nəhəng" ləqəbli Zaur!

Öyrəndi hərb sənətin, günlər aya calandı,
Bu günlə barışmayıb sabaha arxalandı,
İmanına söykənib, Allaha arxalandı,
Düşmənlərdən öc aldı, "nəhəng " ləqəbli Zaur!

Pozdu öz hünəriylə düşmənin növrağını,
Sancdı yurd yerlərinə Azəri bayrağını,
Öz qanıyla suvardı Füzuli torpağını,
Şəhadətə ucaldı, "nəhəng" ləqəbli Zaur!

Azadlığı dünyaya uladı boz qurdumuz,
İti yuvasınacan qovdu şanlı ordumuz,
Şəhidlərin qanıyla azad oldu yurdumuz,
Zəfər, qələbə çaldı "nəhəng "ləqəbli Zaur,
Tarixlərə kök saldı, "nəhəng ləqəbli Zaur!

## Qaradağ Buduğun snayper oğlu.



*MAXE* ***Alxasov Elməddin Rəsul oğlu***
*29.09.1994 – 02.10.2020*
*Qaradağ buduq kəndi. Suqovuşanda şəhid olub.*

O da bu Vətənin bir ağacıydı,
Budağı göylərdə yer ağacıydı,
Əsli, soyadıyla pir ağacıydı,
Alxasların kökü uludan ulu,
Qaradağ Buduğun snayper oğlu.

Soyuna cəsarət qatdılar onun,
Boyuna əzəmət qatdılar onun,
Suyuna məhəbbət qatdılar onun,
Vətənə xidmətdə gördü haqq yolu,
Qaradağ Buduğun snayper oğlu.

Yenilməz haqq işi şərəf qürurdu,
Amalı işıqdı, əməli nurdu,
Necə nişan aldı, nə sərrast vurdu,
Düşməni alnından, quşu gözündən,
Rəsulun rəsulu, Allahın qulu,
Qaradağ Buduğun snayper oğlu.

Adını həkk etdin tarix daşında,
Füzuli, Cəbrayıl, haqq savaşında,
Şəhadət qazandın Suqovuşanda,
Tanrı dərgahında məqamın ulu,
Qaradağ Buduğun snayper oğlu...

## Murov qartalı



*MAXE* ***Baxşıyev Vahid Məclum oğlu***
*17.05.1999 – 03.11.2020*
*Bayoba kəndi.*
*Murovda şəhid olub.*

Bayoba balaca kənddi əslində,
Gözəldi bahar, yay, payız fəslində,
Bir ər böyüyürdü Baxşı nəslində,
Bir az duyğuluydu, bir az qapalı,
Vahid Məclumoğlu, Murov qartalı.

Çevirib şəri də xeyir yazırdı,
Elə bil İlahi deyir, yazırdı,
Nağıl oxuyurdu, şeir yazırdı,
Güllərdən arı tək çəkirdi balı,
Vahid Məclumoğlu, Murov qartalı.

Beləcə bir ömür varaqlayırdı,
Əsir yurd deyəndə çox ağrıyırdı,
Sanki sinəsində ox ağrıyırdı
"Vətən", söyləyəyirdi, candan bahalı,
Vahid Məclumoğlu, Murov qartalı.

Vətənə xidməti seçdi igidim,
Cəsurluq məktəbi keçdi igidim,
Düşmənin qanını içdi  igidim,
Azad etdi eli, yurdu, mahalı,
Vahid Məclumoğlu, Murov qartalı.

Şükür, üzü güldü Qarabağın da,
Qanının işığı al bayrağımda,
Şəhadət qazandı Murov dağında,
Oldu azadlığın işıq, nur halı,
Vahid Məclumoğlu, Murov qartalı...

## Ölməz şəhidim



*Gizir* ***Rəşidov İlham Tahir oğlu***
*01.03.1983 – 28.09.2020*
*Xudat şəhəri.*
*Murovda şəhid olub.*

Xudatda doğuldun, böyüdün erkən,
Zəhmətdən yoğruldu bu can, bu görkəm,
Neçə dil bilirdin, bir dilin varkən,
Sən biləni kimsə bilməz, şəhidim,
İlham Tahiroğlu, ölməz şəhidim.

Bu nəslin işıqlı kölgəsi idin,
Həyat adlı çayın gur səsi idin,
Rəşidlər kökünün gövdəsi idin,
Min budaq bir kökü bölməz, şəhidim,
İlham Tahiroğlu, ölməz şəhidim.

Bilsək ki, gəlirsən, min il gözlərik,
Oğlundan, qızından hələ gizlərik,
Axar Dəryamızın dərya gözləri,
İlhanın ürəyi gülməz, şəhidim,
İlham Tahiroğlu, ölməz şəhidim.

Qorudun Vətəni qarda, qırovda,
Qalmadı müqəddəs torpaq girovda,
Düşmənə elə toy tutdun Murovda,
Bir daha özünə gəlməz, şəhidim,
İlham Tahiroğlu, ölməz şəhidim.

Yaralı Vətənin qanadı oldun,
İşıqlı zəfərin nur adı oldun,
Xaçmazın ilk şəhid övladı oldun,
Zaman da tarixdən silməz, şəhidim,
İlham Tahiroğlu, ölməz şəhidim...

## Taxtın mübarək



*MAXE* ***İmanov Rəhim Rauf oğlu***
*09.08.1990 – 21.10.2020*
*Xaspoladoba kəndi.*
*Füzulidə şəhid olub.*

Adında Tanrının adını seçdin,
İmamlar nəslindən nur kimi saçdın,
Xaspoladobada gözünü açdın,
Dünyaya nə gözəl baxdın, mübarək.

Çağırdı göylərdən Tanrının səsi,
Qovdun içindəki şəri, iblisi,
Girdi ürəyinə Allah sevgisi,
İmanın əlini sıxdın, mübarək!

Xeyir-dua verdi ev, atan sənə,
Eldə hörmət qoydu hər adam sənə,
Ocaq bəxş elədi Yaradan sənə,
Nihatın, Fatimə baxtın mübarək.

Vətən dara düşdü, Vətən çağırdı,
Düşmənin gözünü ovub çıxardın,
Şəri torpağımdan qovub çıxardın,
Od qoydun, yandırıb yaxdın,
mübarək!

Sevmək az, qorumaq deyilmiş asan,
Füzuli uğrunda can getdi ehsan,
Müqəddəs şəhidlik məqamındasan,
Rəhim Raufoğlu, taxtın mübarək...

## Sərdarlı Rahim



*Könüllü.* ***Sərdarlı Rahim Rafik oğlu.***
*13.08.1996 – 10.11.2020*
*Canaxır kəndi.*
*Füzulidə şəhid olub*

Canaxır kəndində bir ər doğuldu,
Maşallah dedilər, köklü oğuldu,
Haqqın nur yolunda səfərbər oldu,
Başladı, "Bismillah Rəhmani Rəhim",
Canaxır igidi Sərdarlı Rahim.

Vətənin can verən suyundan içdi,
Candan şirin sayıb Vətəni seçdi,
Uğrunda bir olan canından keçdi,
Uşaq saydığımız müqəddəs dahim,
Canaxır igidi Sərdarlı Rahim.

Yandı el yolunda, ömrü nur etdi,
Şərin qalasını gorbagor etdi,
Nəyi bacardısa etdi, zor etdi,
Rəhimsiz düşmənə etmədi rəhm,
Canaxır igidi Sərdarlı Rahim.

Yurdun zülmətində çırağa döndü,
Qeyrəti silaha, yarağa döndü,
Füzuli uğrunda bayrağa döndü,
Onu öz yanına çəkdi İlahim,
Canaxır igidi Sərdarlı Rahim.

Onsuz da dünyanın budur gərdişi,
Mərdin balasından çıxır mərd işi,
Oğlun göylərdədi, ay Rafik kişi,
O ruhu zirvədə uçan bir şahin,
Canaxır igidi Sərdarlı Rahim.

## İgidim Orxan



*MAXE* ***Daşdəmirov Orxan Rəfail oğlu.***
*27.02.2001 – 30.09.2020*
*Hülövlü kəndi.*
*Murovda şəhid olub*

Dünyanın büsatlı, gözəl çağında,
Rəfail kişinin nur ocağında,
Qədim Hülövlünün pir torpağında,
Palıd kimi bitdi, igidim Orxan.

Bulaq kimi duru, saf ürəkliydi,
Canavar qeyrətli, şir biləkliydi,
Qaya sinəliydi, dağ kürəkliydi,
Təəccüb, heyrətdi, igidim Orxan.

Qılınc oynadardl baxıb aynadan,
Top-tüfəng sevirdi başdan, binadan,
Hərbçi doğulmuşdu sanki anadan,
Hərbə sarı getdi, igidim Orxan.

O müqəddəs bildi Vətən daşını,
Uddu el yolunda haqq savaşını,
Murovda düşmənin əzib başını,
Şəhadətə yetdi, igidim Orxan.

Tarixə qanıyla yazdı uğuru,
Yurda işıq salır qəlbinin nuru,
Şanlı məmləkətin fəxri, qüruru,
Şərəfdi, qeyrətdi igidim Orxan.

## Müşfiqin şərəfi, fəxri, qüruru



*Əsgər* ***Əkpərov Cabar Əşrəf oğlu.***
*17.07.2002 – 07.10.2020*
*Müşfiq kəndi.*
*Suqovuşanda şəhid olub*

Sən qeyrət atında Koroğlu idin,
Torpaq adamıydın, yer oğlu idin,
Cabar Əşrəfoğlu, nur oğlu idin,
Bulaq suyu kimi amalın duru,
Müşfiqin şərəfi, fəxri, qüruru.

"Moto" çağırırdı bu kənddə çoxu,
Dilində yalan yox, gözündə qorxu,
Səndəydi Əkpərlər nəslinin ruhu,
Görənlər deyirdi: "Allah, sən qoru",
Müşfiqin şərəfi, fəxri, qüruru.

Yerli yerindəydi ağlın, qeyrətin,
Elinə, obana saf məhəbbətin,
Hər şeyə çatırdı qabiliyyətin,
Gördüyün çox işdə tapdın uğuru,
Müşfiqin şərəfi, fəxri, qüruru.

Vətən haray çəkdi, bəsdi durduğun,
Şərin sinəsini dəldi haqq oxun,
Göstərdin zərbini "Dəmir yumruğun"
Zərbindən düşmənin çatladı goru,
Müşfiqin şərəfi, fəxri, qüruru.

Qarşında kim durar, coşub, daşanda,
Adını həkk etdin tarix daşında,
Tanrıya qovuşdun Suqovuşanda,
Yurda işıq saldı şəhadət nuru,
Müşfiqin şərəfi, fəxri, qüruru...

## Mais Şadıbəy oğlu



*Baş gizir* ***Səmədov Mais Şadıbəy oğlu.***
*28.07.1977 – 06.10.2020*
*Qadaşoba kəndi.*
*Füzulidə şəhid olub*

Qadaşoba kəndində boya-başa yetişdin,
Hərbə verdin könlünü, odlar içində bişdin,
Səni Vətən çağırdı, dar gününə yetişdin,
Cəngi çalındı, cəngi, Mais Şadıbəy oğlu,
Şimalın mərd pələngi, Mais Şadıbəy oğlu.

Başlandı haqqa doğru, son müqəddəs bir səfər,
Yumruq kimi birləşib millət oldu bir nəfər,
Füzuli, Cəbrayılda qazandığın o zəfər,
Düşmənlərin son zəngi, Mais Şadıbəy oğlu,
Şimalın mərd pələngi, Mais Şadıbəy oğlu.

Unutmadın Vətənə verdiyin sözü, andı,
Düşmənin beli sındı, leş-leş üstə qalandı,
Qürurla dalğalanıb qanınla işıqlandı,
Bayrağımın al rəngi, Mais Şadıbəy oğlu,
Şimalın mərd pələngi, Mais Şadıbəy oğlu.

Yurda şərəf gətirdin, mərdliyin, qeyrətinlə,
Ölümsüzlük qazandın haqqa şəhadətinlə,
Nizamlandı dastana sığmaz rəşadətinlə,
Bu dünyanın ahəngi, Mais Şadıbəy oğlu,
Şimalın mərd pələngi, Mais Şadıbəy oğlu.

Sən canına can verdin canım Azərbaycanın,
Səninlə qürur duyur, Məleykən, Süleymanın,
Tarixə həkk etdiyin adın, Qadaşobanın,
Əbədiyyət çələngi, Mais Şadıbəy oğlu,
Şimalın mərd pələngi, Mais Şadıbəy oğlu.

## Cənab baş gizir



*Baş gizir **Məmmədov Mahir Ağasəlim oğlu**.*
*28.01.1981 –*
*19.10.2020*
*Şıxaput kəndi*
*Hadrutda şəhid olub*

Böyüdün köksündə sevgi, məhəbbət.
Şıxaput kəndindən apardı qismət,
Sənətin müqəddəs Vətənə xidmət,
Safdı əhdin, andın, cənab baş gizir.

Ana, Vətən oldu sözün həmişə,
Yurd eşqi köksündə döndü günəşə,
Vətən çağıranda döndün atəşə,
El uğrunda yandın, cənab baş gizir.

Göstərdin düşmənə qurd qeyrətini,
Qoydun gözlərində bəd niyyətini,
Əsir yurdlarımın hüriyyətini,
Candan vacib sandın, cənab baş gizir.

Ruhun Füzulinin dolaylarında,
Boylanır Hadrutdan işıq halında,
Şir kimi vuruşub yolunda haqqın,
Nə bezdin, nə sındın, cənab baş gizir.

Şəri yuvasında boğdun əlinlə,
Göylərə ucaldın haqq əməlinlə,
Ömrün davam edir oğlun Səlimlə,
Ölməzlik qazandın, cənab baş gizir...

## Seyfi ləqəbli igid



*MAXE* ***Seyfullayev Fərid Xeyrulla oğlu****.*
*23.08.1991 – 14.11.2020*
*Hacıqurbanoba kəndi.*
*Şuşada şəhid olub.*

Hacıqurbanobada adıyla tanınırdı,
Fərid Xeyrulla oğlu, zatıyla tanınırdı,
Ürəyinin atəşi, oduyla tanınırdı,
Böyüdü, yaşa doldu Seyfi ləqəbli igid.

Xüsusi təyinatlı dəstənin əsgəriydi,
Şir kimi vuruşurdu, canavarın biriydi,
Ölümə dik baxırdı, o həmişə diriydi,
Qəfil saraldı, soldu, Seyfi ləqəbli igid,

Ana Vətən çağırdı, sərt dayandı bu yolda,
Haqsıza haqq vermədi, mərd dayandı bu yolda,
Suqovuşan, Füzuli, Hadrutda Cəbrayılda,
Tarixlərə iz saldı, Seyfi ləqəbli igid.

Doğma yurdda sevgili Leylası gözləyirdi,
Şirin-şəkər balası Aylası gözləyirdi,
Gözü yaşlı ananın laylası gözləyirdi,
Şuşada şəhid oldu, Seyfi ləqəbli igid.

Dillərdə əzbər oldu rəşadəti, qazandı,
Vətənə qurban getdi, min rəhməti qazandı,
Tanrının hüzurunda şəhadəti qazandı,
Ölməzlərə qoşuldu, Seyfi ləqəbli igid.

## Qaracəllinin



*MAXE **Mustafayev***
***Samir Azər oğlu.***
*10.03.2000 –*
*29.10.2020*
*Qaracəlli kəndi.*
*Suqovuşanda şəhid olub*

Şəhid naləsinə göynəyir fələk,
Gözləri suludu Qaracəllinin.
Yolları boş idi, evləri seyrək,
Ürəyi doludu Qaracəllinin.

Bir az soyuq idi, bir az da bürkü,
Gəldim ziyarətə, dedim diz çöküm,
Azər pir ocağı, Mustafa kökü,
Uludan uludu Qaracəllinin.

Atanı qardaşı sandım, İlahi,
Od vurub yandırdı ananın ahı,
Şəhadət qazanan Samirin ruhu,
İşıq, nur halıdı Qaracəllinin.

Çox təlatüm olar su qovuşanda,
Bu kənd yaxşı görsən suqovuşandı,
Samir yazan tarix Suqovuşanda,
Tanrıya yoludu Qaracəllinin.

Könüllərdə qurdu şəhidim taxtı,
Ay ata, ay ana, qınama baxtı,
Şəhidlər Vətənin şərəf paytaxtı,
Samir simvoludu Qaracəllinin...

**Ucalıq gətirdi Rəvan.**



*Əsgər **Şahmuradov Rəvan Dilşad oğlu.***
*14.07.1999 – 16.10.2020*
*Şərifoba kəndi.*
*Füzulidə şəhid olub.*

Bu eldə igid çox, birdi, ikidi,
Yaxşı xatırlayır kənd bu igidi,
Vətənin sevgisi qanında idi,
Əsgər tək böyüdü seçilmiş insan,
Vətənə ucalıq gətirdi Rəvan.

Sönmədi Vətənə məhəbbət odu,
Haqqa kəc baxanın gözünü ovdu,
Düşməni yurdundan it kimi qovdu,
"Canavar" ləqəbli topçu qəhrəman,
Vətənə ucalıq gətirdi Rəvan.

Xalqı heyran etdi ləyaqətiylə,
Sevildi şir kimi cəsarətiylə,
Zirvələr fəth etdi rəşadətiylə,
Gördü bütün dünya, bildi bu cahan,
Vətənə ucalıq gətirdi Rəvan.

Ürəyində sevgi, üzdə nur getdi,
Daşdı dağ çayı tək, coşdu, gur getdi,
Bir sərrast atəşlə bir tabor getdi,
Oldu şər yuvası yer ilə yeksan,
Vətənə ucalıq gətirdi Rəvan.

Hünərin önündə ürəklər coşur,
Şairlər şəninə nəğmələr qoşur,
Şəhidlər ölmür ki, haqqa qovuşur,
Onunla fəxr edir can Azərbaycan,
Vətənə ucalıq gətirdi Rəvan.

## Ehtiram



*MAXE* ***Heydərov Ehtiram Şahin oğlu.***
*05.03.2000 – 15.10.2020*
*Uzunoba kəndi.*
*Suqovuşanda şəhid olub*

Uzunoba kəndində sakit, adi ailə,
Bir oğul pərvazlandı, bu obaya, bu elə,
Böyütdü Şahin kişi torpağa sevgi ilə,
Sevdin öz anan kimi bu Vətəni, Ehtiram,
Yad edir ehtiramla Vətən səni, Ehtiram.

Hərbçiliyə salmışdın əzəl gündən meylini,
Topa tutub yox etdin düşmənin fənd-felini,
Öz dəmir yumruğunla qırdın yağı belini,
Qovdun yurdun başından duman, çəni,
Ehtiram,
Yad edir ehtiramla Vətən səni, Ehtiram.

İgid kəşfiyyatçı tək özünü kəşf eylədin,
Ən ulu tarixlərə adını nəqş eylədin,
Əsir torpaqlarıma azadlıq bəxş eylədin,
Qurban etdin o ruhu, bu bədəni, Ehtiram,
Yad edir ehtiramla, Vətən səni, Ehtiram.

Qeyrətdə, cəsarətdə Mübarizlə yarışdın,
Nərə çəkib şir kimi, canavar tək vuruşdun,
Suqovuşan uğrunda şəhadətə qovuşdun,
Allah rəhmət eləsin, qəni-qəni, Ehtiram ,
Yad edir ehtiramla Vətən səni, Ehtiram.

Bu obanın, bu elin səndən uca yeri yox,
Şəhidlik məqamında səndən canlı diri yox,
Şənini vəsf etməyə qələmin hünəri yox,
Bilirəm bağışlayar ruhun məni, Ehtiram,
Yad edir ehtiramla Vətən səni, Ehtiram!

## A Məmmədxanlı



***Ağayev Elvin Valeh oğlu***
*25.11.1997 – 30.10.2020*
*Cəbrayılda şəhid olub*

Xəzər sahilində balaca bir yurd,
Övladları qoçaq, igidləri qurd,
Doğru ad qoyubmuş o Dədəm Qorqud,
Bir igid qayıtdı köynəyi qanlı,
Öyün şəhidinlə, a Məmmədxanlı.

Ağa soyundandı, Elvindi adı,
Gözünə sığmırdı arzu, muradı,
Düşmənin Vətəndə tozu qalmadı,
Göylər sakinidi, cənnət məkanlı,
Öyün şəhidinlə, a Məmmədxanlı

Vətənin daşına hər yer vətəndi,
Yurddan qeyri hər şey itib gedəndi,
Elə ucaltdı ki, kiçik bir kəndi,
Oldu el içində şöhrətli, şanlı,
Öyün şəhidinlə, a Məmmədxanlı.

Üzdü boğazını şər adlı divin,
Şəhid məqamına ucaldı Elvin,
Toxta, Valeh kişi, qürurlan, sevin,
Diridən diridir, canlıdan canlı,
Öyün şəhidinlə, a Məmmədxanlı.

## Sadiq



***Baxışov Sadiq Bəkir oğlu***
*02.12.2001 –*
*28.10.2020*
*Çarxı kəndi.*
*Ağdərədə şəhid olub.*

Dərd dərdi, qan qanı çəkir, qardaşım,
Dağa da güvənmə, çökür, qardaşım,
Halal zəhmətiylə Bəkir qardaşım,
Bir igid böyütdü, andına Sadiq.
Sən sadiq oldun öz adına, Sadiq.

Adını qazandın Dədəm Qorquddan,
Soyun Baxışdandı, kökün boz qurddan,
Düşməni it kimi qovdun bu yurddan,
Baxdın qələbənin dadına, Sadiq,
Sən sadiq oldun öz adına, Sadiq.

Koroğlu nəslisən, ər oğlusan ər,
Haqqın savaşında göstərdin hünər,
Sənə dua edir Füzuli, Tərtər,
Həkk oldun tarixin yadına, sadiq,
Sən sadiq oldun öz adına, Sadiq.

Məqamın ucadı haqqın yolunda,
Mələklər əyilir sağın, solunda,
Ruhun bir günəşdi, şəhid halında,
Bu torpaq qızınır oduna, Sadiq,
Sən sadiq oldun öz adına, Sadiq...

## Vüqar



*Əsgər* ***Sadıqov Vüqar İlqar oğlu***
*30.04.2001 – 13.10.2020*
*Qusarçay kəndi.*
*Füzulidə şəhid olub.*

Qusarçayda igid oğullar çoxdu,
İgidlər fövqündə biridi Vüqar.
Hər biri düşmənin gözünə oxdu,
Uçan sarayların tiridi Vüqar.

Vətən haray çəkdi, duydu çətini,
Yurdun uca tutdu ləyaqətini,
Silaha çevirib öz qeyrətini,
Ölümün üstünə yeridi Vüqar.

İmana güvəndi Tanrı qulu tək,
İşıqlı yolmu var, nurlu yolu tək,
Düşməni başına yağdı dolu tək,
Odundan qar kimi əridi Vüqar.

Yağı sinəsinə əcəl tək endi,
Füzuli uğrunda torpağa döndü,
Düşməni ağlatdı, Vətən sevindi,
Bir nəslin müqəddəs piridi Vüqar.

Bayraqlar qoynunda dəfn oldu nəşi,
Şəhidlik, qazilik Allahın işi,
Ağlama, səbr elə, ay İlqar kişi,
Şəhidlər ölmür ki, diridi Vüqar...

## Günəş



*Könüllü* ***Qocayev Günəş Əfqan oğlu***
*13.11.1996 – 01.11.2020*
*Palçıqoba kəndi*
*Xocavənddə şəhid olub*

Bir Günəş doğulddu Palçıqobaya,
İşığı bir elə nur paylayırdı.
Sanki yovuşmurdu fani dünyaya,
İçindən bir Vətən haraylayırdı.

Əsir torpaqların ahı, naləsi,
İçini yandıran bir od, gur atəş.
Tapdanmış qürurun inilti səsi,
Qoymurdu şəfəqlər saça bu günəş.

Tərtərin qaranlıq səmalarından,
Düşmənin başına od ələyirdi.
Cəbrayıl, Füzuli, Qubadlıyacan,
Mənfur qaranlığı güllələyirdi.

Zülməi nuruyla parçalayaraq,
Qara buludlardan öc aldı Günəş.
Xocavənd uğrunda olub bir bayraq,
Nurlu şəhadətə ucaldı Günəş.

Tanrıdan nurlanan günəşlər sönməz,
Qürubda dincini almağa getdi.
Vətənim bölünməz, şəhidlər ölməz,
Göylərdə əbədi qalmağa getdi...

## Elsevər



*Əsgər **Əliyev Elsevər Hikmət oğlu***
*07.08.2001 – 02.10.2020*
*Qusarçay kəndi.*
*Füzulidə şəhid olub.*

Hikmət kişi bilirmiş ad qoyanda,
Yurd sevənmiş, el sevənmiş Elsevər.
Qusarçaydan əl çəkməzdi bir an da,
Çay sevənmiş, sel sevənmiş Elsevər.

Böyüyüncə min əcəldən qayıtdı,
Ürəyində Vətən eşqi oyatdı,
Torpağını sevə-sevə boy atdı,
Aysevənmiş, ilsevənmiş Elsevər.

İlk sevgisi ürəyində dil açdı,
İmanlıydı, Tanrısına əl açdı,
Yurd sevdası puçurladı, gül açdı,
Yurd xoşlayan, gülsevənmiş Elsevər.

El çağırdı, Allah, deyib, güc aldı,
Füzulidə yağılardan öc aldı,
Şəhidliyin zirvəsinə ucaldı,
Ölməzliyə yolsevənmiş Elsevər.

Tarix yazdı göstərdiyin rəşadət,
Şəhidliyin ucalığa şəhadət,
Unudulmaz etdi səni məhəbbət,
El sevəni el sevərmiş, Elsevər...

## Oyan, şəhidim



*Əsgər* ***Soltanov Hüseyin Fərhad oğlu****.*
*26.04.1996 –*
*22.10.2020*
*Hacıqurbanoba kəndi*
*Xocavənddə şəhid olub*

Səni sevənlərə yoxluğun bir dağ,
Hüseyin... dedikcə yanır dil, dodaq,
Yenə əzizlərin yanındadı, qalx,
Bilirəm olubdu əyan, şəhidim,
Oyan, qurban olum, oyan, şəhidim.

Göylər də ağlayır, yer köks ötürür,
Tanrı bu fəryadı necə götürür,
Vətən yarasına şəfadan ötrü,
Öz şirin canına qıyan şəhidim,
Oyan, qurban olum, oyan, şəhidim.

Dönüb mərd xalqımın qəhrəmanına,
Boyadın düşməni qızıl qanına,
Ucalıb işığın nur məqamına,
Göydə mələklərə həyan şəhidim,
Oyan, qurban olum, oyan, şəhidim.

Yaşlı gözümüzə gülüb gedirsən,
Oxtək ürəkləri dəlib gedirsən,
Hər gün yuxumuza gəlib gedirsən,
Getmə, ayaq saxla, dayan, şəhidim,
Oyan, qurban olum, oyan, şəhidim...

Əriyib Fərhadın gözünün nuru,
Anan nə gündədi, Allah sən qoru,
Sənsiz itirmişik ağlı, şüuru,
Bizi yesir günə qoyan şəhidim,
Oyan, qurban olum, oyan, şəhidim.

## **Dədəli qəhrəmanı**



*MAXE* ***Qədirov Müqəddəs Nail oğlu***
*14.05.1992 – 07.10.2020*
*Dədəli kəndi.*
*Füzulidə şəhid olub.*

Qədim-qayım bir kənddə göz açmışdı dünyaya,
Nail Qədir soyadı iz açmışdı dünyaya,
Öz Müqəddəs adıyla söz açmışdı dünyaya,
Tarixlərə zəfərlə yazıldı adı, sanı,
Sən həmişəyaşarsan, Dədəli qəhrəmanı.

Onu Vətən çağırdı, anası qaldı getdi,
Şirin-şəkər, bal qızı, sonası qaldı getdi,
Üçrəngli bayraq kimi göyə ucaldı getdi,
Ən uca zirvələrə qalxdı şöhrəti, şanı,
Sən həmişəyaşarsan, Dədəli qəhrəmanı.

Kəmənd atıb yağıya xam attək cilovladı,
Yurda kəc baxanları kəklik kimi ovladı,
Düşməni tazı kimi Cəbrayıldan qovladı,
Füzuli torpağına qarışdı qızıl qanı,
Sən həmişəyaşarsan, Dədəli qəhrəmanı.

Bu torpağın, bu elin sevgisindən güc aldı,
Düşmənə qan uddurub, yağılardan bac aldı,
Ən müqəddəs məqama, şəhadətə ucaldı,
Ölümüylə diriltdi canım Azərbaycanı,
Sən həmişəyaşarsan, Dədəli qəhrəmanı.

Şəhidlik məqamında sən göylərin sirrisən,
Müqəddəs əməlinlə müqəddəs pir yerisən,
Ucalardan ucasan, dirilərdən dirisən,
Ölməzlər sırasına atmısan öz imzanı,
Sən həmişəyaşarsan, Dədəli qəhrəmanı...

## İkram, Çiləgirin şəhid övladı



*Əsgər **Məmmədov İkram Ehtiram oğlu.***
*08.06.2002 – 13.10.2020*
*Çiləgir kəndi.*
*Füzulidə şəhid olub.*

Çiləgir kəndində çoxdu İgidlər,
Suyundan mərd çıxır, torpağından ər,
Vətən çağıranda hərə bir əsgər,
Candan üstün tutdu, Vətənə andı,
İkram, Çiləgirin şəhid övladı.

Gah yolçu olurdu, gah da yol idi,
Haqsızın ağası, haqqa qul idi,
O tamam başqa cür bir oğul idi,
Yerli yerindəydi ağlı, savadı,
İkram, Çiləgirin şəhid övladı.

Ömrü qönçə idi, bir növbahardı,
Haqsıza dağ çəkib haqqına vardı,
Əsir torpaqları qanla suvardı,
Zərbindən şər susdu, yer- göy oynadı,
İkram, Çiləgirin şəhid övladı.

Yaşadı dünyada müsafir kimi,
Andı müqəddəsdi, özü pir kimi,
Girdi döyüşlərə cəsur şir kimi,
Yurdumuzdan kafir iti qovladı.
İkram, Çiləgirin şəhid övladı.

Şəhidlər Allaha ən yaxın sir daş,
Mələkdən, fələkdən ucadı bir baş,
Başını uca tut, Ehtiram qardaş,
Oğlunun tarıxə yazıldı adı,
İkram, Çiləgirin şəhid övladı...

## Kamil Şıxəmməd oğlu



*Baş çavuş*
***Şıxmuradov Kamil Şıxəmməd oğlu.***
*25.12.1978 – 08.11.2020*
*Fərzəlioba kəndi .*
*Laçında şəhid olub.*

O Fərzəliobada bu dünyaya göz açdı,
İgid kimi böyüdü, hünərindən söz açdı,
Xudatın tarixində şərəfli bir iz açdı,
Yurda işıqdı, nurdu, Kamil Şıxəmməd oğlu.

Bu Vətənə xidməti seçib qəhrəman oldu,
Neçə-neçə sınaqdan keçib qəhrəman oldu,
Düşmənləri ot kimi biçib qəhrəman oldu,
Quşu gözündən vurdu, Kamil Şıxəmməd oğlu.

Düşmədi, şan-şöhrətin, var-dövlətin eşqinə,
Döyüş yolunu seçdi bu millətin eşqinə,
Sürəyyanın, Fəridin, ədalətin eşqinə,
Düşmənə qan uddurdu,
Kamil Şıxəmməd oğlu.

"Əmi" çağırırdılar dostları darıxanda,
Dilində Vətən idi, axşamı, sabahında,
Ölməzliyə qovuşub Tanrının dərgahında,
Şəhidlik taxtı qurdu, Kamil Şıxəmməd oğlu.

Azad oldu yurdumuz, artdı şöhrətim, şanım,
Tarixlərə yazıldı qəhrəmanlıq dastanım,
Onunla fəxr eyləyir canım Azərbaycanım,
Yurda şərəf, qürurdu, Kamil Şıxəmməd oğlu,
Sönməz işıqdı, nurdu, Kamil Şıxəmməd oğlu...

## Rəşadətli Rəşidim



*Könüllü **Mədinov Rəşid Nəzər oğlu***
*24.04.1996 – 14.10.2020*
*Yeni həyat qəsəbəsi.*
*Füzulidə şəhid olub.*

Nəzər kişi, bu həyat sevgisiylə gözəldi,
Qədim-qayım bir eşqə təzə mağar düzəldi,
Yeni həyat kəndinə yeni bir həyat gəldi,
Nur üzlü, nur simalı, nur sifətli Rəşidim.

Ruhu yerə sığmırdı, göylərə uzanırdı,
Əlinin qabarıyla çörəyin qazanırdı,
Soyuq adamların da ürəyi qızınırdı,
Od kimi istiqanlı, hərarətli Rəşidim!

Vətən səslədi, öpdün üçrəngli bayrağından,
Kəsdin murdar əlləri müqəddəs torpağından,
İt kimi qaçdı düşmən boz qurdun qabağından,
Şir biləkli pələngim, cəsarətli Rəşidim!

Sən şərə zəfər çalıb məhəbbət qazanmısan,
Soyadına, kökünə şan-şöhrət qazanmısan,
Füzuli savaşında şəhadət qazanmısan,
Vətən təəssübkeşi, el qeyrətli Rəşidim.

Ulu haqqa qovuşdun sən haqqın savaşında,
Haqqın var bu Vətənin torpağında, daşında,
Yaşadacaq əbədi xalq səni yaddaşında,
Sən əbədiyaşarsan, rəşadətli Rəşidim!
Vətən təəssübkeşi, el qeyrətli Rəşidim...

## Nərəcan kəndinin mərd oğlu Qürbət



*MAXE* ***Tarverdiyev Qürbət Rasim oğlu.***
*21.05.1998 – 08.10.2020*
*Nərəcan kəndi.*
*Füzulidə şəhid olub.*

Nərəcan, Xaçmazın dilbər guşəsi,
Gözəldir nərgizi, tər bənövşəsi,
Güldürdü bir evi oğul nəşəsi,
Bəslədi könlündə sevgi məhəbbət,
Nərəcan kəndinin mərd oğlu Qürbət.

Böyüyüb fəhm etdi yaxşını, pisi,
Şərə savaş açıb, qovdu iblisi,
Düşdü ürəyinə Allah sevgisi,
İmanı yoluna saçdı hərarət,
Nərəcan kəndinin mərd oğlu Qürbət.

Sözü bütöv idi, əməli birdi,
Haqqına diz çöküb iman gətirdi,
Vətən çağıranda savaşa girdi,
Göstərdi şir kimi hünər, cəsarət,
Nərəcan kəndinin mərd oğlu Qürbət.

Bayrağım rəng aldı qızıl qanından,
Azadlıq günəşi doğdu danından,
Füzuli uğrunda keçdi canından,
Qazandl əlçatmaz bir əbədiyyət,
Nərəcan kəndinin mərd oğlu Qürbət.

Şəhidim, ocaqsan, uğur pirisən,
İşığın özüsən, sən nur yerisən,
Şanlı Vətənimin qürur yerisən,
Səninlə fəxr edir, bu yurd, məmləkət,
Nərəcan kəndinin mərd oğlu Qürbət...

## Nur içində yat



***Bayramov Məmməd Arif oğlu.***
*23.11.2001 – 18.10.2020*
*Xaçmaz şəhəri.*
*Füzulidə şəhid olub.*

Bayrama çevrildi sən doğulan gün,
Adını həmd olan, Məmməd qoydular.
Peyğəmbər adını daşıdığınçün,
Rəğbət bəslədilər, hörmət qoydular.

Halal bir mayadan gəlmişdi kündən,
Bu yükü götürmək deyildi asan.
Dərk edib özünü tanıyan gündən,
Çalışdın bu ada layiq olasan.

Həmişə xeyirə sən qanad gərdin,
Adının nə uca qiyməti vardı.
Elə uşaqlıqdan Vətənsevərdin,
Canında bi elin qeyrəti vardı.

Vətən harayladı, ilk  sıradaydın,
Azad oldu yurdum Cəbrayıl, Murov,
Zəngilan, Füzuli, gözlərin aydın,
Uca dağ başına tez düşür qırov.

Sevin, Arif kişi, ana, ağlama,
Hər kəsə şəhidlik bəxş etmir həyat.
Mələklər də səcdə edir oğluna,
Nur üzlü şəhidim, nur içində yat,
Hər kəsə şəhidlik lütf etmir həyat...

## Ey Vətən oğlu




*MAXE* ***Xurşudov Nazir Məhəmməd oğlu.***
*01.02.1985 – 28.10,2020*
*Çaykənarı kəndi.*
*Xocavənddə şəhid olub.*

Nurlu bir axşamda gəldin dünyaya,
Dedilər çıraqsan, ey Vətən oğlu.
Elə oğul oldun elə, obaya,
Həmişə üzağsan, ey Vətən oğlu.

Məhəmməd hümməti, yolun haqq yolu,
Ürəyin işıqla, sevgiylə dolu,
Gur yanan həyatın odlu, alovlu,
Sönməyən ocaqsan, ey Vətən oğlu.

Yazdın Füzulidə, Ağdamda dastan,
Xocavənd uğrunda tökdün qızıl qan,
Səninlə fəxr edir, Şahin, Asiman,
Ən uca bir dağsan, ey Vətən oğlu.

Parlaq ömür sürdün, şərəfli, şanlı,
Nə uca adın var, Azərbaycanlı,
Diridən dirisən, canlıdan canlı,
Sən həmişə sağsan, ey Vətən oğlu.

Tarixə yazıldı şanın, şöhrətin,
Qürur mənbəyisən ulu millətin,
Sonsuz göylərində əbədiyyətin,
Enməyən bayraqsan, ey Vətən oğlu...

## Mirzə ləqəbli Sərxan



*MAXE* ***Mirzəmmədov Sərxan Osman oğlu.***
*03.08.1998 – 09.10.2020*
*Mirzəmmədkənd kəndi.*
*Murovda şəhid olub.*

Mirzəmməd kənd, Xaçmazın qədim-qayım bir kəndi,
İnsanları imanlı, möminləri əfəndi,
Xeyirxahlıq qoxuyur hər bərəsi, hər bəndi,
Belə kənddə doğuldu yenilməz bir qəhrəman,
Xalqın qürur yerisən, mirzə ləqəbli Sərxan.

Vətəninə xidməti canının borcu sandın,
Torpağın keşiyində rəşadətlə dayandın,
Həyat amalın oldu, el önündə hər andın,
Vermədin bir sirri sən, mirzə ləqəbli Sərxan,
Xalqın qürur yerisən, mirzə ləqəbli Sərxan!

Tanındın bu Vətənə sonsuz məhəbbətinlə,
Düşmənə qan uddurdun zərbin, cəsarətinlə,
Üzümüzü ağ etdin, yudun rəşadətinlə,
Alnımızdan kiri sən, mirzə ləqəbli Sərxan,
Xalqın qürur yerisən, mirzə ləqəbli Sərxan.

Osman kişi, qürurlan, oğlun getdi pir oldu,
Amalıyla əməli haqq yolunda bir oldu,
Ruhu göyə ucaldı, cismi torpaq, yer oldu,
Sən azadlıq pirisən, mirzə ləqəbli Sərxan,
Xalqın qürur yerisən, mirzə ləqəbli Sərxan.

Suqovuşan, Murovda daddın qisasın tamın,
Can oduyla yandırdın azadlığın gur şamın,
Şəhadətə ucaldın, göylərdədir məqamın,
Dirilərdən dirisən, mirzə ləqəbli Sərxan,
Xalqın qürur yerisən, mirzə ləqəbli Sərxan.

## Bu da son fərman



*Əsgər* ***Səfərəliyev Rəşad Fərman oğlu****.*
*02.10.2001 – 28.09.2020*
*Xaçmaz şəhəri.*
*İlk şəhid.*
*Mübariz postunda şəhid olub.*

Bir igid doğuldu Xaçmaz elində,
Nəzir payladılar, qurban yedilər.
Sevincdən dodağı qaçdı gülün də,
Allahın əmriydi, Rəşad dedilər.

Qismət də, tale də Tanrı ətası,
Vətənin car çəkən vaxtına düşdü.
Qisas alammadı qazi atası,
Qisas igid oğlun baxtına düşdü.

Qəhrəman Mübariz idealıydı,
Böyüdü, döyüşkən mübariz oldu.
Şəhid rütbəsinə iddialıydı,
Mübariz postunu alıb vuruldu...

Ölümdən, itimdən keçər mərd işi,
Oğlun müqəddəsdir, Tanrıdı şahid.
Başını dik saxla, ay Fərman kişi,
Qurddan qurd törəyər, qazidən şəhid.

Bilirəm kövrəksən, ürəyin yanır,
Nə əlac tapmırsan, nə də ki, dərman.
Tanrı dərgahından nur tək boylanır,
Rəşad ölməz oldu, bu da son fərman...

## Azadlığın nur yolu



*Əsgər* ***Məmmədov Pərvin Natiq oğlu.***
*04.08.2001 – 21.11.2020*
*Şıxlar kəndi.*
*Suqovuşanda şəhid olub.*

Qədim Şıxlar Vətənindi, evindi,
Oğlu oldu, qazi Natiq sevindi,
Sənsiz qalıb ocaq indi, ev indi,
Evin olan bir oğlusan, Pərvinim,
Azadlığın nur yolusan, Pərvinim.

Dərdin oldu Vətən dərdi, bəlası,
Sənə düşdü əsir yurdun xilası,
Mətanətin qədim Şıxlar qalası,
Vüqarlısan, qürurlusan, Pərvinim,
Azadlığın nur yolusan, Pərvinim.

Ən layiqli övlad oldun ölkəyə,
Od ələndi, çəkilmədin kölgəyə,
Sən Vətəni ayırmadın bölgəyə,
Ağdamlısan, Murovlusan, Pərvinim,
Azadlığın nur yolusan, Pərvinim.

Qorxutmadı ildırımlar, yağışlar,
Hünərini mələklər də alqışlar,
Azad oldu Suqovuşan, Talışlar,
İşıq dolu, nur dolusan, Pərvinim,
Azadlığın nur yolusan, Pərvinim.

Tarix yazdın, tarixlərə qarışdın,
Cəngə girib aslan kimi vuruşdun,
Haqq yolunda şəhadətə qovuşdun,
Əbədiyyət simvolusan, Pərvinim,
Azadlığın nur yolusan, Pərvinim.

## Anarlar Anar



*Əsgər* ***Mürsəliyev Anar Səfər oğlu.***
*21.11.2001 – 25.10.2020*
*Xaçmaz şəhəri.*
*Tərtərdə şəhid olub.*

Sən kökdən yarandın, göydən enmədin,
Səfərin müqəddəs, yandın, sönmədin,
Tanrı min sınağa çəkdi, dönmədin,
Oğulları bərkdə sınarlar, Anar,
Səni fəxarətlə anarlar, Anar!

Böyüdün, Mübariz gücü qolunda,
Vətənə hay verdin, cəngi çalanda,
Canından keçənlər Vətən yolunda,
Müqəddəs məqama qonarlar, Anar,
Səni fəxarətlə anarlar, Anar!

Azaddı Cəbrayıl, Füzuli, Tərtər,
Düşmənə od qoyub, göstərdin hünər,
Zülmətin bağrını yarıb dələnlər,
Göydə günəş kimi yanarlar, Anar,
Səni fəxarətlə anarlar, Anar!

İgidliyin ağla, gümana gəlməz,
Zaman da adını tarixdən silməz,
Vətənim bölünməz, şəhidlər ölməz,
Şəhidi müqəddəs sanarlar, Anar,
Səni fəxarətlə anarlar, Anar!

Qanının rəngi var bayrağın üstə,
Haqqın gəzdiyimiz torpağın üstə,
Azadlıq adlanan o dağın üstə,
Əbədi bir heykəl yonarlar, Anar,
Səni fəxarətlə anarlar, Anar!

## Peyğəmbərlik məqamı



***Hacıyev Davud Novruz oğlu.***
*14.07.1998 – 26.11.2020*
*Xaçmaz şəhəri.*
*Füzulidə şəhid olub.*

Ömür yollarında xoş günə vardıq,
Bizə də bir oğul lütf etdi Allah.
Peyğəmbər xətrinə Davud çağırdıq,
Peyğəmbər kimiydin, əstafurullah.

Sənin gəlişinlə ruhum da güldü,
Min bir əziyyətlə böyütdüm, oğul.
Sənlə nəfəs alıb, səninlə öldüm,
Ömrümü dən kimi üyütdüm, oğul.

Sənə söykənirdim, nə yaxşı vardın,
Ay mənim yeganə arxam, dayağım.
Məni qərq olmağa qoymayan varlıq,
Ümmanlar içində xilas qayığım.

Səninlə həyatım xoş bahardı ki,
Sanki çiçək açıb qönçələyirdin.
Üzündə elə bir işıq vardı ki,
Ömrümə, günümə nur çiləyirdin.

Vətən zülmətdəydi, söylədin, vaxtdı,
Gedirəm Vətənə işıq yaymağa.
Düşdü taleyinə şəhidlik baxtı,
Azadlıq yolunda döndün bayrağa.

Başını dik saxla, Validə anam,
Gündüzlər günəşəm, gecələr Ayam.
Bir salavat çevir, ruhuma salam,
Daha peyğəmbərlər məqamındayam...

## Qəhrəman Kərəm



*Könüllü **Veyisov***
***Kərəm Səddar oğlu***
*11.12.1998 –*
*11.11.2020*
*Xaçmaz şəhəri.*
*Daşaltıda şəhid olub.*

Xaçmaz alqışladı Səddar övladın,
Tanrı Kərəm qıldı, qoydular adın,
Sən bu mərtəbəyə asan qalxmadın,
Dünya çox elədi imtahan, Kərəm,
"Canavar" ləqəbli qəhrəman Kərəm!

Vətənə xidməti seçib bəyəndin,
Həmişə cəld oldun, qıvraq geyindin,
Köynək bəyənmədin, bayraq geyindin,
Qəlbinə bəzəkdi din, iman, Kərəm,
"Canavar" ləqəbli qəhrəman Kərəm!

Adın Tanrımızın göy kitabında,
Həmişə 1 idin haqq hesabında,
Sən bir döyüşçüydün dünya çapında,
Üçqat çempiondun, pəhləvan Kərəm,
"Canavar" ləqəbli qəhrəman Kərəm!

Düşmənlə könüllü girdin savaşa,
Qarışdın qanınla torpağa, daşa,
Şahiddi Füzuli, Cəbrayıl, Şuşa,
Vermədin düşmənə heç aman, Kərəm.
"Canavar" ləqəbli qəhrəman Kərəm!

Şəhid zirvəsinə qalxdın hünərlə,
Yurdu sevindirdin şanlı zəfərlə,
Adın tarixlərə yazıldı zərlə,
Unutmaz el səni heç zaman, Kərəm,
"Canavar" ləqəbli qəhrəman Kərəm!

## Nur içində yat



*Əsgər* ***Tağıyev Nurağa Davud oğlu***
*20.04.2001 – 11.10.2020*
*Xaçmaz şəhəri.*
*Murovda şəhid olub.*

Bir yaz iki nurdan bir nur doğuldu,
Nurağa dedilər, nur tək oğuldu,
Xaçmaza nur saldı, yaraşıq oldu,
Qəfil işıqlandı qaranlıq həyat,
Nurüzlü Nurağam, nur içində yat.

Nurdan doğulmuşdu, nur işıq idi,
Gözlər qamaşırdı, gur işıq idi,
Təpədən dırnağa yaraşıq idi,
Bu dünya zülməti sevirmiş, heyhat,
Nurüzlü Nurağam, nur içində yat.

İşıqlı böyüdü, igid ər oldu,
Vətənin dar günü səfərbər oldu,
Haqqın ordusunda haqq əsgər oldu,
Şükür, azad oldu bu el, bu elat,
Nurüzlü Nurağam, nur içində yat.

Layiqli payını aldı o düşmən,
Azadlıq uğrunda şəhid oldun sən,
Tanrı dərgahında salmısan məskən,
Səni necə tapım, göylər yeddi qat,
Nurüzlü Nurağam, nur içində yat.

Davud kişi, mərdlik, kökdə, qandadır,
Vətən şəhid qoxur, torpaq qan dadır,
Oğlun mələklərlə bir məqamdadır,
Başına and içir, yer-göy, kainat,
Nurüzlü Nurağam, nur içində yat...

## “Şako” ləqəbli Şöhrət



*Könüllü* ***Cəlilov Şöhrət Cəfər oğlu***
*11.01.1998 –*
*28.10.2020*
*Xaçmaz şəhəri.*
*Füzulidə şəhid olub.*

Xaşmazın bərəkətli, bəhərli  torpağında,
Bir oğul doğulmuşdu eşqin gur ocağında,
Baharın təravətli, ömrün cavan çağında,
Çiçək kimi qoxurdu, Şako" ləqəbli Şöhrət !

Zəhmətdən yoğrulmuşdu halal duzu, çörəyi,
İmana söykənirdi, inam idi dirəyi,
Elə işıqlı idi əməlləri, ürəyi,
Haqdan düşən bir nurdu, Şako" ləqəbli
Şöhrət !

Vətən haray salanda, millət səfərbər oldu,
Milli birlik yarandı, hamı bir nəfər oldu,
Pələng kimi vuruşdu, dönüb şiri-nər oldu,
Düşmənə qan uddurdu, Şako" ləqəbli
Şöhrət !

Adını uca tutdu üçrəngli bayrağının,
Sildi üz ləkəsini müqəddəs torpağının,
Cəbrayılda, Ağdamda, Füzulidə yağının,
Külün göyə sovurdu, Şako" ləqəbli Şöhrət !

Ona şərəf gətirdi göstərdiyi rəşadət
Qovuşdurdu Tanrıya haqq yolunda şəhadət,
Şəhidlik zirvəsində qazanıb əbədiyyət,
Könüllərdə taxt qurdu, "Şako" ləqəbli
Şöhrət!

## Şəhidlər ölməz



*Gizir* ***Çobanov***
***Orxan Zahid oğlu***
*02.08.1997 –*
*29.09.2020*
*Yeni Sudur kəndi.*
*Füzulidə şəhid olub.*

Yeni Sudur kəndi, igidlər yurdu,
Tanrı lütf elədi, bir ər yoğurdu,
Ürəyi işıqdı, əməli nurdu,
Bir də belə oğul dünyaya gəlməz,
Orxan Zahidoğlu, şəhidlər ölməz.

Dərdi səninkiydi köçkün qardaşın,
Vətənə qurbandı, deyirdin, başın,
Yurdu əsirlikdə qalan soydaşın,
Gözləri qan çəkər, ürəyi gülməz,
Orxan Zahidoğlu, şəhidlər ölməz.

Sevgidən güc alıb igid, ər oldun,
Elmdə, idmanda hünərvər oldun,
Vətənə xidmətə səfərbər oldun,
İçindən qisasa çağırdı bir səs,
Orxan Zahidoğlu, şəhidlər ölməz.

Qalib kimi girdin sən Qarabağa,
Gömdün düşmənləri qara torpağa,
Füzuli uğrunda döndün bayrağa,
Bilənlər diz çökər, bilməyən bilməz,
Orxan Zahidoğlu, şəhidlər ölməz.

Elə üzağlığı, ucalıq da sən,
Şəhid xatırlanır, ucalıq desən,
Sən elə müqəddəs ucalıqdasan,
Tarixdən adını zaman da silməz,
Orxan Zahidoğlu, şəhidlər ölməz...

## Elşən



***Ağasiyev Elşən***
***Ağabala oğlu***
*22.09.1999 –*
*04.10.2020*
*Xaçmaz şəhəri.*
*Suqovuşanda şəhid olub.*

Üfüqlər söküldü, günəş doğuldu,
Həyat əfsanəydi, şirin nağıldı,
Günlər bal dadırdı, şəkər, noğuldu,
Bir oğul böyüdü, üzügülər, şən,
Füsunkar Xaçmazın mərd oğlu Elşən!

Ağasılar nəsli kökü, soyudu,
Ağabala kişi verdi öyüdü,
Vətənə məhəbbət, eşqlə böyüdü,
Səni "oğul" deyib çağırdı Vətən,
Füsunkar Xaçmazın mərd oğlu Elşən!

Qeyrətə qurşanıb döndün əskərə,
Haqqa arxalanıb od qoydun şərə,
Hökmünə şahiddi Tərtər, Ağdərə,
Düşməni it kimi qovlamısan sən,
Füsunkar Xaçmazın mərd oğlu Elşən!

Suqovuşan oldu sular qovuşan,
Söndü əbədilik həyat adlı şam,
Sənin qovuşduğun ilahi məqam,
Tanrı hüzurunda mələklərə tən,
Füsunkar Xaçmazın mərd oğlu Elşən!

Sönməyən çıraqsan, həmişə gursan,
Millətə şərəfsən, xalqa qürursan,
Vətən torpağına əkilən nursan,
Əbədi işıqsan, göylərdən düşən,
Füsunkar Xaçmazın mərd oğlu Elşən!

## Qürurudur Azərbaycanın



***Babayev Rauf Fəxrəddin oğlu***
*05.06.2001 – 01.10.2020*
*Xaçmaz şəhəri.*
*Ağdərədə şəhid olub.*

Xaçmaz igidlərin məskəni, yurdu,
Əfsanəvi şəhər, müqəddəs diyar.
Baba kök-soyundan bir nur doğuldu,
Adını mübarək Rauf qoydular.

Hər yerdə haqq imiş Allahın işi,
Bir ömür başladı, bir ömür bitdi.
Bir qismət yaşadı Fəxrəddin kişi,
Boyunu doyunca öyməyib getdi.

Nələrə dözmədi o böyüyüncə,
Canından can verdi Simuzər ana.
Bir oğul böyütdü məğrur və incə,
Ürəyi xəzinə, qəlbi zər ana.

Vətən "oğul" dedi, oğul "can" dedi,
Mənfur yağılardan bac aldı Rauf.
Ağdərə uğrunda o qurban gedib,
Şəhid zirvəsinə ucaldı Rauf.

Nolar, toxunmayın o sarı simə,
Bitmir bu itkinin ağrı, acısı.
"Dayı" hayqıranda gözəl Fatimə,
Bilmir nə söyləsin şəhid bacısı!

Şəhidlər heç zaman sönməyib yanar
İşığı, nurudur Azərbaycanın.
Başını dik saxla, Simuzər ana,
Oğlun qürurudur Azərbaycanın...

## İslamov Cəlal



*Əsgər* ***İslamov Cəlal Ağahüseyin oğlu***
*03.07.2001 – 08.10.2020*
*Çarxı kəndi.*
*Füzulidə şəhid olub.*

Tanrı oğul verdi, baxdı, sınadı,
Oldu Hüseyinin qolu, qanadı,
Atanın, ananın bircə övladı,
İncisi, ləli sən, İslamov Cəlal!

Böyüdün imanlı, hörmət-izzətli,
Bayraq sevdalıydın, igid qeyrətli,
Vətən səsləyəndə birinci getdin,
Əzəldən beləsən, İslamov Cəlal!

Qovdun yağıları Vətən boyunca,
Yurdun qisasını aldın doyunca,
Düşmənin anasın ağlar qoyunca,
Güldürdün eli sən, İslamov Cəlal!

Tərtərdə, Talışda vuruşdun mətin,
Qondun zirvəsinə sən şəhadətin,
Şərəfli tarixin, əbədiyyətin,
Danışan dilisən, İslamov Cəlal!

Qarışdı müqəddəs torpağa qanın,
Yayıldı dünyaya şöhrətin, şanın,
Qürur mənbəyisən Azərbaycanın,
Şərəf heykəlisən İslamov Cəlal!

## Elsevər Qaliboğlu



*MAXE* ***Yarıyev Elsevər Qalib oğlu.***
*25.09.1986 – 30.10.2020*
*Xudat şəhəri.*
*Füzulidə şəhid olub.*

O dünyaya gələndən, önündə kiçilirdik,
Çörək kimi yeyilib, su kimi içilirdi,
Kimsəyə bənzəmirdi, hamıdan seçilirdi,
Başqa cürə oğuldu, Elsevər Qaliboğlu,
Zəfər üçün doğuldu, Elsevər Qaliboğlu!

Haqqa haqq qazandırıb, nə fənd bildi, nə hiylə,
Güvənliyi hörməti, düşdü dodağa, dilə,
Canında el sevgisi, Vətən məhəbbətiylə,
Böyüyüb yaşa doldu, Elsevər Qaliboğlu,
Zəfər üçün doğuldu, Elsevər Qaliboğlu!

Vətən onu səslədi, oldu igid bir əsgər,
Füzuli torpağında göstərdi min bir hünər,
Sevindi Qalib oğlu, sevindi qızı Gülər,
Düşmən saçını yoldu, Elsevər Qaliboğlu,
Zəfər üçün doğuldu, Elsevər Qaliboğlu!

Seçildin bu Vətənə, elə sədaqətinlə,
Azad oldu yurdumuz əzminlə, cürətinlə,
Yenildi mərə düşmən sənin rəşadətinlə,
Qan içində boğuldu, Elsevər Qaliboğlu,
Zəfər üçün doğuldu, Elsevər Qaliboğlu!

Hamı torpaq oğludu, kimsə göylərdə qalmır,
Azadlıq çiçəkləri qanla sulanır, solmur,
Ucaldlğın şəhadət hər kəsə nəsib olmur,
Ən müqəddəs bir yoldu, Elsevər Qaliboğlu,
Zəfər üçün doğuldu, Elsevər Qaliboğlu!

## Xaqani abi




*Abi ləqəbli MAXE*
***Əskərov Xaqani***
***Səfa oğlu***
*27.08.1995 –*
*30.09.2020*
*Xudat şəhəri.*
*Füzulidə şəhid olub.*

Səfanın ocağı gurdu dedilər,
Gəlib xeyir-dua verdi Dədələr,
Bir oğul doğuldu, nurdu dedilər,
Oldular hüsnünün heyranı, abi,
Müqəddəs şəhidim, Xaqani abi!

Amalın işıqlı bir sabah idi,
Ürəyin işıqlı, xeyirxah idi,
Dilində bir Vətən, Bir Allah idi,
Başına tac etdin Quranı, abi,
Müqəddəs şəhidim, Xaqani abi!

Aylinin, Ahunun nur çırağısan,
Elinin, obanın güvən dağısan,
Bu yurdun ucalan al bayrağısan,
Kəsdin o qadanı, bu qanı, abi,
Müqəddəs şəhidim, Xaqani abi!

Vətən haray saldı, çağladın, coşdun,
Füzuli uğrunda şir tək vuruşdun,
Azadlıq yolunda haqqa qovuşdun,
Sən heyrətə saldın dünyanı, abi,
Müqəddəs şəhidim, Xaqani abi!

Tarixdə, şeirdə hecalardasan,
Şəhidlik taxtında ucalardasan,
Qarşında diz çökər ucalar desən,
Qazandın şöhrəti, bu şanı, abi,
Müqəddəs şəhidim, Xaqani abi!

## Hüseyinli İlqar, şanlı qəhrəman



*Baş gizir* ***Hüseynli İlqar Şəmiyyət oğlu.***
*06.10.1976 – 09.10.2020*
*Xudat şəhəri*
*Suqovuşanda şəhid olub.*

Dünyaya gələndə tutdular niyyət,
"İgidim" söylədi atan Şəmiyyət,
İşığa qərq oldu, yer, göy, təbiət,
Sənin gəlişinə güldü bu cahan,
Hüseyinli İlqar, şanlı qəhrəman!

Böyüdün, uçulan evə tir oldun,
Hərbçi taleyində baş gizir oldun,
Vətənin əmrinə müntəzir oldun,
Namərd yağılara vermədin aman,
Hüseyinli İlqar, şanlı qəhrəman!

Qoşa qanadındı Həsən, Hüseyin,
Gözəl-göyçək qızın Leyla ürəyin,
Yurdun azadlığı arzun, diləyin,
Qanınla qazandın, göstərdi zaman,
Hüseyinli İlqar, şanlı qəhrəman!

"Kitayes" öndəydi, bilmədi səngər,
Şir kimi vuruşub göstərdin hünər,
Azaddı Füzuli, sevinir Tərtər,
Mənfur düşmənlərə qan uddurdun,
qan,
Hüseyinli İlqar, şanlı qəhrəman!

Şəhadət qazandın Suqovuşanda,
Haqqın var Vətənin qara daşında,
Həkk oldun tarixin qan yaddaşında,
Sənlə qürur duyur can Azərbaycan,
Hüseyinli İlqar, şanlı qəhrəman!

## Göylər sakinidi Arazov Elçin



***Arazov Elçin Eldar oğlu***
*08.08.2001 – 31.10.2020*
*Aşağı Ləgər kəndi.*
*Suqovuşanda şəhid olub.*

Balaca bir kənddi Aşağı Ləgər,
Tanıdır bu kəndi böyük igidlər,
Bir oğul doğuldu, Elçin dedilər,
Qondu bir ocağa bəyaz göyərçin,
Göylər sakinidi Arazov Elçin!

Sevindi Mahirə, sevindi Eldar,
Çiçək sevgiləri gətirmişdi bar,
Min ildən bir gəlir belə oğullar,
Nə pislik bilmədi, nə nifrət, nə kin,
Göylər sakinidi Arazov Elçin!

Allah adamıydı, imanlı idi,
Namuslu, qeyrətli, vicdanlı idi,
Vətəncanlı idi, elcanlı idi,
Canı yox, Vətəni elədi seçim,
Göylər sakinidi Arazov Elçin!

Selə çevrilirdi coşub daşanda,
Qovdu tülküləri qurd savaşında,
O haqqa qovuşdu Suqovuşanda,
Çıxdı əsir yurdun yuxuları çin,
Göylər sakinidi Arazov Elçin!

Ay Mahirə ana, İradə bacı,
Bilirəm ağırdı bu ağrı, acı,
Qismət ona imiş şəhidlik tacı,
Qoydu şirin canı Vətənçin, elçin,
Göylər sakinidi Arazov Elçin!

## İlahəddin xalqın hünərvər oğlu



*Əsgər* ***Mamedov İlahəddin Diaməddin oğlu****.*
*02.07.2001 – 15.10.2020*
*Nabran kəndi.*
*Kəlbəcərdə şəhid olub.*

Görən torpaqdamı, yoxsa ki qanda,
İgidlər tükənməz Azərbaycanda,
Vətənin incisi gözəl Nabranda,
Bir həyat başlandı, sevinclə dolu,
İlahəddin, xalqın hünərvər oğlu

Dəyişdi zəmanə, ötdü neçə il,
Fələk gərdişini dəyişən deyil,
İdmana, imana salmışdı meyil,
Amalı müqəddəs, işıq, nur yolu,
İlahəddin, xalqın hünərvər oğlu!

Vətən çağıranda, "haycan" söylədi,
Qurbandı canına bu can söylədi,
Düşməni önündə zəlil eylədi,
İgidlikdə Babək, Nəbi, Koroğlu,
İlahəddin, xalqın hünərvər oğlu!

Güc aldı torpaqdan, Quran-Kərimdən,
Vətən torpağına əkildi dən-dən,
Xocavənd, Cəbrayıl, Kəlbəcərimdən,
Qovdu şeytanları Tanrının qulu,
İlahəddin, xalqın hünərvər oğlu.

Sevin ana, ata, olma naşükür,
İlahi məqama ucaldı, şükür,
Mələklər əlinə göydə su tökür,
Şəhidlik zirvəsi sevməz hər oğlu,
İlahəddin, xalqın hünərvər oğlu!

## Orxan Mürşüdobalı



*MAXE **Osmanov***
***Orxan Mansur oğlu***
*25.11.1999 –*
*12.10.2020*
*Mürşüdoba kəndi.*
*Suqovuşanda şəhid*
*olub.*

Mürşüdoba Xaçmazın ən səfalı guşəsi,
Oğulları hünərvər, qızlar,- çöl bənövşəsi,
Bir ocaqdan ucaldı mübarək övlad səsi,
Torpağından güc aldı, Orxan Mürşüdobalı!

Böyüdükcə bu kənddə qazanmışdı hörməti,
Yurduna vurğun idi, çox sevirdi milləti,
Canının borcu bildi Vətəninə xidməti,
Yağılardan öc aldı, Orxan Mürşüdobalı!

Vətənə məhəbbəti bir idi, beş eylədi,
Əsir torpaqlarıma azadlıq bəxş eylədi,
Haqqın haqq kitabına zəfəri nəqş eylədi,
Şanlı qələbə çaldı, Orxan Mürşüdobalı!

Keçdi fırtına kimi bu cahandan igidim,
O qansız yağılara içirdi qan igidim,
Suqovuşan uğrunda, keçdi candan igidim,
Şəhidliyə ucaldı, Orxan Mürşüdobalı!

Gülür azad yurdumuz, indi Vətən də şaddı,
Azərbaycan xalqına şanlı zəfər yaşatdı,
Ölməzliyə qovuşdu, yaddaşlara kök atdı,
Tarixlərə iz saldı, Orxan Mürşüdobalı!

## Kamil Şamiloğlu, Şuşa pələngi



*MAXE* ***Məmmədov Kamil Şamil oğlu.***
*25.12.1998 – 28.01.2021*
*Köhnə Xudat şəhəri.*
*Şuşada şəhid olub.*

Köhnə Xudat kəndi, köhnə bir ocaq,
Bir eşq pöhrələnib atdı qol, budaq,
Bir oğul doğuldu, güldü dil, dodaq,
Dəyişdi dünyanın ritmi, ahəngi.

Dedilər yer oğlu deyil, göyündü,
Ürəyi Vətənlə, ellə döyündü,
Qarğı yox, Qır atı çapıb öyündü,
Sevdi uşaqlıqdan topu, tüfəngi.

Elə imanlıydı, sanki pir idi,
Varlığı varlığa bir nəzir idi,
Tanrının əmrinə münrəzir idi,
Səslədi ana yurd, çalındı cəngi.

Şəhadət ömürlü ölüm yaşadı,
Məqamı peyğəmbər, pirlə qoşadı,
Nur saçır Füzuli, Ağdam, Şuşada,
Ucalan bayraqdan qanının rəngi.

Nişanlı igiddi, surətdə Yusif,
Mağar yox, məzarda etdilər tərif,
Anası Validə, qardaşı Rusif,
Saldılar boynuna şəhid çələngi.

Haqq idi, Haqqından güc alıb getdi,
Mənfur yağılardan öc alıb getdi,
İlahi zirvəyə ucalıb getdi,
Kamil Şamiloğlu, Şuşa pələngi...

## Vüqarı Vüsal



*Əsgər **Mahmudov Vüsal Xəyyam oğlu***
*10.03.2002 – 03.10.2020*
*Qaracik-Zeyid kəndi.*
*Füzulidə şəhid olub.*

Gözəl bir məkanda gəldin dünyaya,
Çevrildi gəlişin büsata, toya,
Varlığın səs saldı elə, obaya,
Ülvi bir sevginin nübarı Vüsal,
Yurdumun qüruru, vüqarı Vüsal.

Zülmət gözlərindən dan sökülürdü,
Çiçək sözlərindən bal çəkilirdi,
Üzündən-gözündən nur tökülürdü,
Ürəyin zirvənin ağ qarı, Vüsal,
Yurdumun qüruru, vüqarı Vüsal.

Səndə barış içrə hərb də var idi,
Ürəyi yumşaqlıq, zərb də var idi,
İlham da var idi, təb də var idi,
Payız ömrümüzün baharı Vüsal,
Yurdumun qüruru, vüqarı Vüsal.

Beş aldın Tanrının imtahanından,
Əsir bəxtimizi süzdün qanından,
Vətənin dar günü keçdin canından,
Unutmadın əhdi, ilqarı, Vüsal,
Yurdumun qüruru, vüqarı Vüsal.

Ağrıma, dərdimə ucalıq desəm,
Çökək taleyimdə ucalıq da sən,
Bilirəm, müqəddəs ucalıqdasan,
Hərdən anan sarı, bax barı, Vüsal,
Yurdumun qüruru, vüqarı Vüsal...

**Səbuhi Hüseynli**



*MAXE* ***Hüseyinli Səbuhi Babək oğlu***
*02.05.1997 – 15.04.2021*
*Maqsudkənd kəndi. Xocavənd uğrunda döyüşlərdə ağır yaralanaraq şəhid olub.*

Maqsudkənd meşələrin qoynunda köhnə sakin,
Oğulları qəhrəman, gözəlləri nur təkin,
Sevgisindən doğulmuş Samirənin, Babəkin,
Üzüyünün zər qaşı, Səbuhi Hüseynli.

Babəkin ruhu vardı, çox sevirdi Vətənin,
Bilirdi yükü çoxdu, kökü üstə bitənin,
Arxa, dayağı oldu bacısı Səidənin,
Vətənpərvər qardaşı, Səbuhi Hüseynli.

Vətən dara düşəndə, yandırdın çırağını,
Möhtəşəm zəfərinlə ucaltdın bayrağını,
Qovdun canavar kimi Füzulidən yağını,
Sən uddun haqq savaşı, Səbuhi Hüseynli.

Əhdinə sadiq oldun, pozmadın heç andını,
Hünərinlə dadmışıq qələbənin dadını,
Azərbaycan durduqca yaşadacaq adını,
Torpağın qan yaddaşı, Səbuhi Hüseynli.

Qapqara torpağın da üzünü ağ etmisən,
Şəhidlik zirvəsində bayraq kimi bitmisən,
Yurdunda Babək kimi ocaq qoyub getmisən,
Maqsudkəndin pirdaşı Səbuhi Hüseynli.

Hünərini söz ilə vəsf eləmək çox çətin,
Şərəf, qürur yerisən bu qürurlu millətin,
Vətən daşıydın, indi qalib bir məmləkətin,
Sən fəxri vətəndaşı, Səbuhi Hüseynli...

## Mündəricat


Ön söz əvəzi ........ 3
Nur simalı şəhidlərim ........ 4
Arəstə xanım ........ 5
Kəşfiyyatçı Fəxrəddin ........ 6
Şəhid balam ........ 7
Nəhəng ləqəbli Zaur ........ 8
Qaradağ-Buduğun snayper oğlu ........ 9
Murov qartalı ........ 10
Ölməz şəhidim ........ 11
Taxtın mübarək ........ 12
Sərdarlı Rahim ........ 13
İgidim Orxan ........ 14
Müşfiqin şərəfi, fəxri, qüruru ........ 15
Mais Şadıbəy oğlu ........ 16
Cənab baş gizir ........ 17
Seyfi ləqəbli igid ........ 18
Qaracəllinin ........ 19
Ucalıq gətirdi Rəvan ........ 20
Ehtiram ........ 21
A Məmmədxanlı ........ 22
Sadiq ........ 23
Vüqar ........ 24
Günəş ........ 25
Elsevər ........ 26
Oyan, şəhidim ........ 27
Dədəli qəhrəmanı ........ 28
İkram, Çiləgirin şəhid övladı ........ 29
Kamil Şıxəmməd oğlu ........ 30
Rəşadətli Rəşidim ........ 31
Nərəcan kəndinin mərd oğlu Qürbət ........ 32
Nur içində yat ........ 33
Ey Vətən oğlu ........ 34
Mirzə ləqəbli Sərxan ........ 35

Bu da son fərman ............................................... 36
Azadlığın nur yolu ............................................ 37
AnarlarAnar ..................................................... 38
Peyğəmbərlik məqamı ........................................ 39
Qəhrəman Kərəm ............................................... 40
Nur içində yat ................................................... 41
"Şako" ləqəbli Şöhrət ......................................... 42
Şəhidlər ölməz .................................................. 43
Elşən ............................................................... 44
Qürurudur Azərbaycanın ................................... 45
İslamov Cəlal ................................................... 46
Elsevər Qaliboğlu ............................................. 47
Xaqani abi ........................................................ 48
Hüseyinli İlqar, şanlı qəhrəman .......................... 49
Göylər sakinidi Arazov Elçin ............................. 50
İlahəddin xalqın hünərvər oğlu ........................... 51
Orxan Mürşüdobalı ........................................... 52
Kamil Şamiloğlu, Şuşa pələngi .......................... 53
Vüqarı Vüsal .................................................... 54
Səbuhi Hüseyinli .............................................. 55

Məmməd Qədir

Haqqınızı halal edin


Nəşriyyatın direktoru: M.Şəfiyev

“Müəllim” nəşriyyatında çap olunmuşdur.

Tel.: (+99412) 555 15 60

E-mail: muallim.mmc@gmail.com

Çapa imzalanmışdır: 20.04.2021. Sifariş: 32

Kağız formatı: $60\times84^{1/16}$ . Şərti ç.v.: 3,6. Sayı: 600